**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

6 iyun 2025-ci il №20 (9126) www.muallim.edu.az muallim@media.edu.az

## Prezident İlham Əliyev Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edib

# "İtaliya-Azərbaycan Universiteti

## əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir"



Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın milli bayramı münasibətilə həmkarı Sercio Mattarellaya təbrik məktubu göndərib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı 2 İyun — Respublika Günü münasibətilə Prezident Sercio Mattarellanı və onun simasında dost İtaliya xalqını öz adından və Azərbaycan xalqı adından ürəkdən təbrik edib, ən xoş arzularını çatdırıb.

Məktubda, həmçinin deyilir: "Dostluq, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-İtaliya dövlətlərarası münasibətlərinin hazırda dinamik və hərtərəfli inkişaf etməsi bizi sevindirir. Bu gün ölkələrimiz iqtisadiyyat, ticarət, energetika, sərmayə, müdafiə, humanitar, o cümlədən elm, təhsil və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət göstərir, əməkdaşlığımız ildən-ilə yeni məzmunla zənginləşir... Humanitar əlaqələrimizin də yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur. İtaliyanın beş aparıcı universiteti ilə birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universiteti əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir".



## "Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında BİZ QƏLƏBƏ QAZANAN ÖLKƏYİK"

"Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var... Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun".

**Prezident İlham Əliyev minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib (2 iyun 2025-ci il)**

## Xankəndidə "Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu"

Forum Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil və dövlət-özəl tərəfdaşlığının inkişafını təşviq etmək məqsədi daşıyır

Bax səh. 3

# "Atam məni görür"

## Atalarının izlərini Şuşada axtaranlar



**Şəhid qızı Xədicə Məlikli:**

"30 ildən sonra azad olunmuş bu torpaqlarda nəfəs almaq, gəzmək, gülmək çox böyük qürur və həyəcan yaradır... Bilirəm ki, atam məni görür. Onun izi olan bu yerlərdə olmaq mənim üçün əvəzolunmaz duyğular deməkdir. Atamla qürur duyuram".



**Şəhid oğlu Yusif İsmayılov:**

"Atam müharibəyə gedərkən demişdi ki, sağ qayıtsam birlikdə Şuşaya gedəcəyik. Bizə bir bayraq vermişdi və söyləmişdi ki, o bayrağı Şuşada dalğalandıracağıq. Amma ona qismət olmadı... Böyük qardaşımla birlikdə o bayrağı buraya gətirib dalğalandırdıq".

Bax səh. 4

Əlcəzairli tələbə:

## "Azərbaycanın təhsil imkanları valideynlərimin diqqətini çəkdi"

Universitetə qəbul olmazdan əvvəl Azərbaycana səfər etmişdim. Səfər zamanı gözəl memarlıq nümunələri, insanların qonaqpərvərliyi və ölkənizin zəngin tarixi məni valeh etmişdi. Bakının həm ənənəvi, həm də müasir üslubun vəhdətini əks etdirməsi, xüsusilə Alov qüllələri və Xəzər dənizi mənzərələri yaddaşımda dərin iz buraxmışdı. Şuşaya da getmək şansım oldu. Şuşanı geri almaq uğrunda əsgərlərinizin böyük qəhrəmanlıq, fədakarlıq göstərmələri barədə faktlarla tanış oldum. Şuşanı gəzdim və möhtəşəm təbiətini, saf havasını çox sevdim. Doğrudan da gözəl torpaqlarınız var.

Bax səh. 6

# "Zəkaların mübarizəsi"



Bax səh. 5

## "Ədəbiyyatın tədrisinə dair bəzi qeydlər"

Ədəbiyyat müəllimi hər şeydən əvvəl bəhs etdiyi məsələnin atəşi ilə yanmağı, duya-duya, hiss edə-edə, alışa-alışa danışmağı bacarmalıdır... Müəllimlərin birinci məqsədi balalarımızın tərbiyəsinə düzgün istiqamət vermək, onlarda xalqımıza, Vətənimizə, ədəbiyyat və mədəniyyətimizə böyük məhəbbət oyatmaqdır! Bunun üçün öz fəaliyyətimizə bir daha baxmaq və onu zamanın səviyyəsinə yüksəltmək ən vacib vəzifəmizdir.

**Bəxtiyar VAHABZADƏ,**

*"Azərbaycan müəllimi", 20 oktyabr 1960-cı il, №79*

Bax səh. 7

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 iyun 2025-ci il*

# Qarabağ Universiteti VII Türk Dövlətləri Türkoloji yay məktəbinə ev sahibliyi edəcək




Qarabağ Universiteti, Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının birgə təşkilatçılığı, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə VII Türk Dövlətləri Türkoloji yay məktəbi keçiriləcək.

Universitetdən “Azərbaycan müəllimi”nə verilən məlumata görə, yay məktəbi 2025-ci ilin 10-17 avqust tarixlərində Xankəndi şəhərində baş tutacaq. Qarabağ Universitetində keçiriləcək yay məktəbi Türk dünyasının tarixi, arxeologiyası, dili və ədəbiyyatı mövzularına həsr olunub. Yay məktəbinin əsas məqsədi iştirakçıların mövzular üzrə nəzəri və praktiki biliklərini artırmaq, elmi tədqiqat bacarıqlarını inkişaf etdirmək və yeni əməkdaşlıq imkanlarını təşviq etməkdən ibarətdir.

Yay məktəbində Türk tarixi, Türk düşüncə və incəsənət tarixi, Türk dili və ədəbiyyatı, antropologiya, kulturologiya və arxeologiya sahələrində fəaliyyət göstərən və tədqiqat aparan 35 yaşadək doktorantlar və alimlər iştirak edə bilərlər.

# “Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında BİZ QƏLƏBƏ QAZANAN ÖLKƏYİK”



İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdəki çıxışında böyük qələbə münasibətilə milli komandamızın üzvlərini təbrik edib.

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

# Azərbaycan dünya çempionu oldu



## Minifutbol üzrə dünya çempionu olan Azərbaycan millisi mükafatlandırılıb

Bakıda keçirilən minifutbol üzrə dünya çempionatının qalibi bəlli olub. AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında təşkil olunan final görüşündə Azərbaycan və Macarıstan yığmaları üz-üzə gəlib. Matç komandamızın 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Millimizin heyətində qolları Təmkin Xəlilzadə, Məhəmməd Xəlilov və Rəvan Kərimov (2) vurublar. Bununla da Elşad Quliyevin rəhbərlik etdiyi kollektiv tarixində ilk dəfə dünya çempionatının qalibi olub. Qeyd edək ki, turnirdə üçüncü yeri Monteneqroya 3:0 hesabı ilə qalib gələn Serbiya millisi tutub.

Bakıda keçirilən minifutbol üzrə dünya çempionatının mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda, vitse-prezidenti Peter Kralik, Azərbaycan Minifutbol Federasiyasının prezidenti (AMF) Orxan Məmmədov, vitse-prezident Taleh Nəsibov, gənclər və idman naziri Fərid Qayıbov və digər rəsmi şəxslər iştirak ediblər.

F.Qayıbov yarışın uğurla keçdiyini vurğulayıb: “Bizə inanan və turnirin Azərbaycanda keçirilməsinə şərait yaradan Dünya Minifutbol Federasiyasına təşəkkür edirəm. Ölkəmizdə idman ildən-ilə inkişaf edir. Dövlət tərəfindən ölkə idmanına yüksək səviyyədə qayğı göstərilir”.

AMF-nin prezidenti Orxan Məmmədov milli komandanı dəstəkləyən hər kəsə minnətdarlığını bildirib: “Milli üzvlər, texniki heyət, digər işçilərə, həmçinin də Dünya Minifutbol Federasiyasına minnətdaram. Bizə möhtəşəm şərait yaradan və daim idmançıların yanında olan dövlətimizin başçısı İlham Əliyevə təşəkkür edirəm”.

Ardınca mundialın qalibi olan Azərbaycan millisinə kubok və qızıl medallar təqdim edilib. Macarıstan yığması gümüş, Serbiya seçməsi isə bürünc medallarla mükafatlandırılıb.

## “Prezident İlham Əliyev hər zaman idmana qayğı göstərir”



**Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov:** “Əlbəttə ki, bu tarixi uğur dövlətimizin başçısı İlham Əliyevin xeyirduası, Azərbaycan Minifutbol Federasiyasına olan dəstəyi sayəsində ərsəyə gəldi. Biz bu işi məhz dövlətin maliyyə və infrastruktur baxımından dəstəyi ilə bacardıq. Prezident İlham Əliyev hər zaman idmana qayğı göstərir. Bundan sonrakı məqsədimiz uşaqları bu idman növünə cəlb etmək və yeni uğurlar qazanmaqdır”.

## “Azərbaycan mundialı möhtəşəm təşkil etdi”



**Dünya Minifutbol Federasiyasının vitse-prezidenti Peter Kralik:** “Bakıda minifutbol üzrə dünya çempionatı möhtəşəm təşkil olundu. Dünya çempionatı üçün böyük dəstək göstərildi. Azərbaycanın minifutbol üzrə çox gözəl komandası var. Onlara öz təbrikimi çatdırıram. Milli komandanız turnir ərzində əla oyun nümayiş etdirdi və qələbəni haqq etdi. Bu yarış minifutbol tarixində ən mötəbər turnir oldu. Bu cür tədbirləri təşkil etməyin necə çətin olduğunu bilirəm. Lakin Azərbaycan bunun öhdəsindən əla şəkildə gəldi”.



# Elm tədris prosesinin əsasını təşkil edir

## Qarabağ Universitetində AMEA-nın 80 illiyinə həsr olunmuş elmi konfrans keçirilib







**Emin ƏMRULLAYEV**

"Elm sahəsinə uzun müddət yetərli qədər investisiyanın qoyulmaması nəticəsində xüsusilə gənclərin elmi fəaliyyətlərdə iştirakı arzuolunan səviyyədə deyil.

Hazırda ali təhsil və elm bir-birindən ayrı görülmür. Ali təhsilin olması üçün mütləq elm olmalıdır. Elm tədris prosesinin əsasını təşkil edir.

2024-cü ildə Azərbaycanda elmi tədqiqatların sayı ötən illə müqayisədə iki dəfədən çox artıb. İnanıram ki, bu say daha da artacaq.

Hər il ölkədən kənara göndərilən gənclərin vətənə qayıtması nəticəsində mühüm elmi uğurların şahidi olacağıq.

Yaxın iki il ərzində Qarabağ Universitetinin kampusu inşa olunacaq, fakültələrin sayı isə 10-a çatdırılacaq".

İyunun 1-də Qarabağ Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illiyinə həsr olunmuş "Azərbaycan Milli Elmlər Akademiyasında Qarabağnamə ənənəsi və müasir dövr" mövzusunda elmi konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov qonaqları salamlayaraq bildirib ki, rəhbərlik etdiyi ali təhsil müəssisəsində elmi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və Qarabağın zəngin mədəni-mənəvi irsinin öyrənilməsi əsas prioritetlərdən biridir.

Konfransın açılış mərasimində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev çıxışında əvvəlcə AMEA-nın 80 illik yubileyi münasibətilə Akademiyanın kollektivini, alimləri və elm ictimaiyyətini təbrik edib. Nazir Qarabağ Universitetinin qarşısında dayanan vəzifələrə də toxunaraq bildirib ki, bu ali təhsil müəssisəsi təkcə regionun deyil, bütövlükdə Azərbaycanın elmi-tədris həyatında mühüm yer tutacaq. Nazir əlavə edib ki, Qarabağ Universiteti elmi mühitin təşəkkül tapması, innovativ təhsil modellərinin tətbiqi və milli-mədəni irsin sistemli şəkildə araşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxışında Qarabağda — Azərbaycanın qədim və strateji əhəmiyyətli bölgəsində belə yüksək səviyyəli elmi tədbirin keçirilməsinin tarixi hadisə olduğunu vurğulayıb. İsa Həbibbəyli qeyd edib ki, bu konfrans təkcə AMEA-nın 80 illik yubileyinə deyil, həm də azad edilmiş torpaqlarda elmi həyatın bərpasına töhfə verən mühüm bir mərhələdir.

Sonra AMEA tərəfindən Qarabağ Universitetinin kitabxanasına 1000 ədəd kitab hədiyyə edilib.

Tədbirin ikinci hissəsində Qarabağın tarixi, mədəniyyəti və toponimik irsi ilə bağlı dörd əsas elmi məruzə təqdim olunub.

Qeyd edək ki, konfrans çərçivəsində Qarabağ Universitetində AMEA-nın rəhbər heyəti və əməkdaşları tərəfindən müxtəlif ixtisaslar üzrə mühazirələr deyilib.

# Xankəndidə "Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu"

## Forum Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil və dövlət-özəl tərəfdaşlığının inkişafını təşviq etmək məqsədi daşıyır




İyunun 2-də Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil və dövlət-özəl tərəfdaşlığının inkişafını təşviq etmək məqsədi daşıyan "Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu" keçirilib.

Forum "Gələcəyin Qarabağı üçün birgə addımlar" konsept mesajı ilə Elm və Təhsil Nazirliyi və İqtisadiyyat Nazirliyinin tərəfdaşlığı, Qarabağ Dirçəliş Fondu, Təhsilin İnkişafı Fondu, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilib.










Qarabağın bərpası və inkişafında bütün tərəflərin koordinasiyalı fəaliyyətinin vacibliyini bir daha gündəmə gətirən tədbirdə dövlət qurumlarının nümayəndələri, bölgədə yerləşən xüsusi nümayəndəliklərin heyəti, özəl sektor təmsilçiləri, Qarabağ Universitetinin professor-müəllim heyəti olmaqla, 200-dən çox iştirakçı yer alıb.

Forumun açılış mərasimində Qarabağ Universitetinin rektoru Şahin Bayramov tədbirin iştirakçılarını salamlayaraq giriş nitqi ilə çıxış edib. Daha sonra elm və təhsil naziri Emin Əmrullayev və Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edərək Qarabağ bölgəsində təhsilin inkişafı, insan kapitalının gücləndirilməsi və dövlət-özəl sektor əməkdaşlığının strateji əhəmiyyəti barədə bir sıra mühüm fikirlər səsləndiriblər.

Fərqli sektorları təmsil edən qurumlar və şirkətlərlə Təhsilin İnkişafı Fondu arasında "Qarabağ Təqaüd Proqramı"nın təsis olunması haqqında Əməkdaşlıq Memorandumunun imzalanması Forumun əsas nəticələrindən biri olub.

Memoranduma əsasən, Qarabağ Dirçəliş Fondu, Veysəloğlu Şirkətlər Qrupu, Azərbaycan Beynəlxalq Bankı, "Kapital Bank" ASC, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı, "McDonald's Azərbaycan" QSC Qarabağ Universitetində təhsil alan tələbələr üçün təqaüd proqramı təsis etmək öhdəliyini üzərlərinə götürüb. Bununla yanaşı, "PSG Capital" İnvestisiya şirkəti, ASELSAN şirkəti, "GEN ilaç" şirkəti, "LANDAU School" məktəb kompleksi, Hədəf Şirkətlər Qrupu, Çaşıoğlu şirkəti, İnci Şirkətlər Qrupu, "Code Academy", Bakı Dizayn Akademiyası və TUNA şirkəti də tələbələrə təqaüd ayıraraq bu təşəbbüsə öz töhfələrini verəcəklər.

Burada əsas məqsəd regionun sosial-iqtisadi inkişafına töhfə vermək, dövlət-özəl sektor əməkdaşlığını gücləndirmək, eləcə də gəncləri Qarabağa yönləndirmək və regiona olan marağı artırmaq, tələbələrə maddi dəstək göstərmək, onların akademik və peşəkar inkişafını təşviq etməkdir. Təqaüd proqramı bölgədə insan kapitalının formalaşdırılmasına xidmət etməklə yanaşı, sosial həssas qruplara dəstək göstərməyi və akademik nailiyyətləri yüksək olan tələbələrin motivasiyasını artırmağı hədəfləyir.

Daha sonra Forum çərçivəsində peşəkar moderator və spikerlərin iştirakı ilə iki fərqli mövzu üzrə panel müzakirəsi təşkil olunub.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibovun moderatorluğu ilə keçirilən "Böyük Qayıdış: çağırışlar və imkanlar" adlı I paneldə elm və təhsil naziri Emin Əmrullayev, Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və Qarabağ Universitetinin rektoru Şahin Bayramov spiker qismində çıxış edərək bölgənin yenidən qurulması və insan resurslarının inkişafı məsələlərinə toxunublar.

II panel isə "Qarabağda dövlət-özəl tərəfdaşlığı imkanları" mövzusuna həsr olunub. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmovun moderator qismində çıxış etdiyi paneldə "Veysəloğlu" Şirkətlər Qrupunun təsisçisi və baş icraçı direktoru Aydın Talıbov, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədrinin müavini Taleh Tahirli, "Kapital Bank" ASC-nin İdarə Heyətinin üzvü Fərid Hidayətzadə, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Araz Paşayev bölgədə dövlət-özəl tərəfdaşlığının perspektivləri və qarşılıqlı əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Forum Qarabağ Universitetinin müəllim-tələbə heyətinin ifasında milli musiqilərimizin səsləndirildiyi bədii hissə ilə başa çatıb.

**Yetər KƏRİMLİ**

# "Şuşa türk xalqları birliyinin mədəniyyət incisidir"

## ŞUŞADA beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib







İyunun 1-də Şuşa şəhərində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə türkdilli xalqların məktəbliləri arasında "Şuşa türk xalqları birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib.

Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Kipr Türk Respublikası və Macarıstandan 300 nəfərə yaxın məktəbli ölkələrinin musiqi və rəqs mədəniyyətini təqdim edib.

Türkdilli xalqların birliyini əks etdirən festivalda dövlət və hökumət rəsmiləri, millət vəkilləri, elm və təhsil ictimaiyyətinin nümayəndələri, həmçinin tanınmış mədəniyyət və incəsənət xadimləri, məktəblilər, şəhid övladları iştirak ediblər.

Qeyd edək ki, bu il 3-cü dəfə keçirilən beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli xalqlardan olan uşaqları bir-birinin milli adət-ənənələri ilə tanış etmək, uşaqlar arasında dostluq, qardaşlıq, qarşılıqlı əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək, onlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini iştirakçılara tanıtmaqdır.

Firudin QURBANOV

## "Festival türk xalqları arasında əməkdaşlığa töhfə verir"



"Şuşa şəhərində keçirilən Beynəlxalq Uşaq Yaradıcılıq Festivalı türk dövlətləri arasında mədəni, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişlənməsinə xidmət edir. Artıq ikinci dəfə baş tutan bu festival müxtəlif türk dövlətlərinin məktəblilərinin iştirakı ilə keçirilir və ortaq mədəni dəyərlərin, tarixin və incəsənətin təbliğinə, eləcə də dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verir".

Bu fikirləri elm və təhsil nazirinin müavini Firudin Qurbanov "Azərbaycan müəllimi"nə açıqlamasında səsləndirib. O qeyd edib ki, festivalın əsas məqsədi türk xalqlarından olan uşaqların arasında mədəni və insani bağların gücləndirilməsidir: "Festival çərçivəsində iştirakçılar hər bir ölkənin mədəniyyətini, incəsənətini, tarixini nümayiş etdirirlər. Bu isə gələcəkdə onlar arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə zəmin yaradır. Eyni zamanda, uşaqlar bir-birinin mədəniyyətini, adət-ənənələrini daha yaxından tanıyır, qarşılıqlı hörmət ruhunda formalaşırlar. Festivalın Şuşada keçirilməsi isə xüsusi əhəmiyyət daşıyır. Çünki iştirakçılar Şuşanın füsunkar təbiəti, zəngin tarixi və mədəni irsi ilə də tanış olurlar".

Nazir müavini əlavə edib ki, festival çərçivəsində məktəblilər incəsənətin müxtəlif sahələri üzrə yaradıcılıqlarını nümayiş etdirir, öz bacarıqlarını sərgiləyirlər. Bu, onların gələcək fəaliyyətlərinə stimul verir, özlərini ifadə etmə, ictimaiyyət qarşısında çıxış etmə və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirir.

Firudin Qurbanovun sözlərinə görə, türk dövlətləri arasında əlaqələrin dərinləşməsi Qarabağda həyata keçirilən layihələrdə də öz əksini tapır: "Özbəkistanın Şuşada məktəb binası inşa etməsi, Qazaxıstanın isə Mədəniyyət Mərkəzi hədiyyə etməsi bu həmrəyliyin bariz nümunəsidir. Qeyd edilməlidir ki, bu festival həm də uşaqların və gənc nəslin azad edilmiş ərazilərə mənəvi bağlarını gücləndirmək məqsədi daşıyır". Nazir müavini sonda qeyd edib ki, belə tədbirlər türk dövlətləri arasında əməkdaşlığın yeni müstəviyə qədəm qoyduğunu göstərir və gələcəkdə bu münasibətlərin daha da genişlənəcəyi gözlənilir.

# "Atam məni görür" – Atalarının izlərini Şuşada axtaranlar

Böyük bir komanda ilə Qarabağa - Şuşaya yola düşdük. Şuşaya gedən avtobuslardan birinin sərnişinləri isə ancaq onlar idi - atalarının izi, ruhu o torpaqlarda olan şəhid övladları.

Bu uşaqlar bilirlər ki, adlarını qürurla çəkdikləri ataları təkcə onları yox, bütün Azərbaycanı, yalnız bu günümüzü deyil, həm də sabahımızı müdafiə ediblər.

"Azərbaycan müəllimi" olaraq Şuşa şəhərində keçirilən "Şuşa - türk xalqları birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalını izləmək üçün gəlmiş şəhid övladlarını elə orada daha yaxından tanımaq üçün həmsöhbət olduq.

Qeyd edək ki, festival çərçivəsində təşkil olunan konsert proqramında iştirak etmək üçün türk dövlətlərindən 300 nümayəndə, tanınmış mədəniyyət və incəsənət xadimləri, həmçinin tamaşaçı qismində 150-yə yaxın məktəbli və şəhid övladı Şuşaya gəlib.

İlk müsahibimiz ilə İsa bulağında tanış olduq. Quba şəhəri 1 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi, şəhid kapitan Aqil Məlikovun qızı Xədicə Məlikli Şuşada ifadə edilməsi mümkün olmayan duyğular yaşadığını qeyd edir: "30 ildən sonra azad olunmuş bu torpaqlarda nəfəs almaq, gəzmək, gülmək çox böyük qürur və həyəcan yaradır. Bu zəfəri ölkə başçısı cənab İlham Əliyevin qətiyyəti, "dəmir yumruğu", ordumuzun şücaəti və xalqımızın cəsarəti ilə qazanmışıq".

Xədicə İsa bulağının suyundan içib, Şuşanın havasını ciyərlərinə çəkən hər bir azərbaycanlının yaşaya biləcəyi hisslərdən qürurla danışırdı. Bu yeniyetmə qız əmindir ki, atası onun bu torpaqlarda böyük fəxrlə gəzdiyini hiss edir:

"Bilirəm ki, atam məni görür. Onun izi olan bu yerlərdə olmaq mənim üçün əvəzolunmaz duyğular deməkdir. Atamla qürur duyuram".

İsa bulağından ayrılandan sonra Cıdır düzündə Yusif ilə həmsöhbət olduq. Lənkəran şəhəri 7 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi, şəhid Taleh İsmayılovun oğlu Yusif İsmayılov deyir ki, övladlarını Cıdır düzünə gətirmək atasının arzusu idi:

"Atam müharibəyə gedərkən demişdi ki, sağ qayıtsam birlikdə Şuşaya gedəcəyik. Bizə bir bayraq vermişdi və söyləmişdi ki, o bayrağı Şuşada dalğalandıracağıq. Amma ona qismət olmadı... Böyük qardaşımla birlikdə o bayrağı buraya gətirib dalğalandırdıq", - dedi səsi titrəyən, gözləri isə sanki Cıdır düzünün əzəmətli mənzərəsinə zillənən Yusif.

O, gələcəkdə hərbçi olaraq atasının yolunu davam etdirmək istəyir.









Şuşanın simvoluna çevrilmiş qala qapısının qarşısında isə Bakı şəhəri XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin şagirdi Melisa Xəlilova ilə tanış olduq: "Buraya gələrkən çox sevinirəm. Şəhidlərimizin sayəsində bu torpaqlardayıq. Onların qəhrəmanlığı sayəsində bu gözəl yerləri görə bilirik. Bu, həm qürurvericidir, həm də duyğulandırır", - deyə Melisa əlavə edib.

Şuşada həmsöhbət olduğumuz məktəblilər ölkəmizin müxtəlif regionlarından "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşəbbüsü ilə festivalı izləmək üçün gəliblər. Birliyin rəhbəri, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova qeyd edib ki, bugünkü festivalda Azərbaycanın müxtəlif bölgələrindən - Quba, Lənkəran, Beyləqan, Masallı, Sumqayıt və s. yerlərdən 20-yə yaxın şəhid övladı iştirak edir:

"Biz hər il bu festivala yeni iştirakçıları - müxtəlif regionlardan olan uşaqları dəvət etməyə çalışırıq. İnanırıq ki, bu cür tədbirlər onların həm emosional, həm də sosial inkişafına müsbət təsir edir və gələcəkdə özlərini cəmiyyətə daha inamlı şəkildə təqdim etmələrinə dəstək olur".

Bu gün Şuşada atalarının əmanətinə sahib çıxan bu uşaqlar bizə bir daha göstərdilər ki, şəhidlik zirvəsi yalnız keçmişin qəhrəmanlıq salnaməsi deyil, həm də gələcəyin ilham mənbəyidir. Onlar bu torpaqlarda sülhün, qürurun və davamlılığın simvoluna çevriliblər. Şuşada onların baxışında gördüyümüz qətiyyət isə bizə bir həqiqəti xatırlatdı: Vətən yalnız canla deyil, ruhla da qorunur.

Günününüz mübarək, azad yurdun övladları!

**Yetər KƏRİMLİ**

## Elm və təhsil naziri Daşkəsəndə vətəndaşları qəbul edəcək




Elm və təhsil naziri Emin Əmrullayev 27 iyun tarixində Daşkəsən şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Daşkəsən, Gəncə, Göygöl, Samux, Goranboy, Naftalan və Kəlbəcər sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 16 iyun (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə *"WhatsApp"* vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# "Zəkaların mübarizəsi"

## Olimpiada qalibləri mükafatlandırılıb

Mayın 31-də Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdlərinin iştirakı ilə keçirilən "Zəkaların mübarizəsi" olimpiadası qaliblərinin mükafatlandırılması baş tutub.





Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edən Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev iştirakçıları və qonaqları salamlayaraq qalibləri qazandıqları nailiyyət münasibətilə təbrik edib. Fuad Qarayev bildirib ki, Elm və Təhsil Nazirliyi tərəfindən istedadlı şagirdlərin aşkara çıxarılması və fənlərin dərindən öyrənilməsinə marağın artırılması məqsədilə bir sıra layihələr uğurla həyata keçirilir. Respublika fənn olimpiadaları, "Sabahın alimləri" layihə müsabiqəsi, "Ən yaxşı təqdimat" müsabiqəsi, "BilBacar" və "Məktəblilərarası Milli Hakaton" kimi yarışlar məktəblilərə bilik və bacarıqlarını nümayiş etdirmək üçün geniş imkanlar təqdim edir.

Sonda Fuad Qarayev olimpiadanın reallaşmasına verdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Daha sonra çıxış edən Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov qeyd edib ki, Fond Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkənin ictimai-siyasi həyatının bir çox sahələrində, xüsusilə elm və təhsil sahəsində davamlı layihələr reallaşdırıb. Bu layihələr ölkənin sosial-mədəni inkişafına əhəmiyyətli töhfələr verib. Fondun təşəbbüsü ilə respublikanın müxtəlif bölgələrində məktəb binalarının inşası, mövcud təhsil infrastrukturunun yenilənməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilib.

"Zəkaların mübarizəsi" olimpiadasının keçirilməsində əsas məqsədin təkcə şagirdlərin elmi potensialını yoxlamaq deyil, eyni zamanda, onların liderlik, analitik düşünmə, komanda ilə işləmə, planlaşdırma və strategiya qurma bacarıqlarını inkişaf etdirmək, sağlam rəqabət və dostluq mühitini gücləndirmək olduğu bildirilib.

Çıxışlardan sonra olimpiadanın müxtəlif mərhələlərini əks etdirən videoçarx nümayiş etdirilib.

Ardınca qalib komandalar mükafatlandırılıb. Onlara sertifikatlar, diplomlar və xatirə kubokları təqdim olunub. Şahmat kateqoriyası üzrə I yerin qalibi Sumqayıt komandası, II yerin qalibi Gəncə komandası, III yerin qalibi isə Xətai komandası olub. Şahmat üzrə fərdi oyunlarda fərqlənmiş 4 iştirakçıya xüsusi mükafat təqdim edilib.

Bilik yarışı kateqoriyasında isə I yerə İsmayıllı komandası, II yerə Bakı şəhəri Xətai komandası, III yerə Zəngilan komandası layiq görülüb.

**Mərziyyə KAZIMZADƏ**

## "BilBacar" müsabiqəsinin final mərhələsi başa çatıb

Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "BilBacar" müsabiqəsinin final mərhələsi başa çatıb.




Final mərhələsində hər sinif üzrə 150 nəfər olmaqla ümumi 450 şagird iştirak edib. Şagirdlər 150 dəqiqə ərzində riyaziyyat, oxu və təbiət fənləri üzrə hər biri 20 sual olmaqla, ümumilikdə 60 sual cavablandırıblar.

Qeyd edək ki, hər sinif üzrə 3 nəfər birinci yerə, 6 nəfər 2-ci yerə və 9 nəfər 3-cü yerə layiq görüləcək.

2024-cu ilin oktyabr ayından start verilən müsabiqədə respublikanın 2000-ə yaxın ümumi təhsil müəssisəsinin VIII, IX və X siniflərindən 170 000-ə yaxın şagird iştirak edib.

Şagirdlərin səriştə əsaslı tapşırıqlarla işləmə vərdişlərini inkişaf etdirmək, rəqəmsal platformada imtahan vermə bacarıqlarını formalaşdırmaq və eyni zamanda, xüsusi istedadlı şagirdləri və qabaqcıl məktəbləri müəyyən etmək məqsədilə həyata keçirilən müsabiqənin mükafatlandırma tədbiri yaxın günlərdə keçiriləcək.

## Elm sahəsinə investisiyaların ayrılmasında özəl sektorla əməkdaşlıq vacibdir

### Gənc tədqiqatçı rəyi

Müasir dövrdə ölkələrin inkişafında əsas rol oynayan amillərdən biri elmdir. Gənclər isə bu inkişafın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Elmi fəaliyyətlərə cəlb olunan gənclər, təkcə fərdi bacarıqlarını inkişaf etdirməklə kifayətlənmirlər, həm də cəmiyyətə faydalı kəşflər, texnoloji yeniliklər və sosial dəyişikliklər gətirə bilirlər. Gənclərin elmi fəaliyyətlərdə iştirakı yalnız onların karyera inkişafı üçün deyil, eyni zamanda ölkənin intellektual potensialının gücləndirilməsi üçün də mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən, onların elmə yönəldilməsi və dəstəklənməsi prioritet məsələlərdən biri olaraq diqqət mərkəzində dayanır.



Elm və təhsil naziri Emin Əmrullayevin Qarabağ Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş "AMEA-da Qarabağnamə ənənəsi və müasir dövr" adlı elmi konfransda çıxışı zamanı səsləndirdiyi fikirlər ölkəmizdə gənclərin elmə cəlb olunmasının üfüqlərinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Nazir elm sahəsinə uzun müddət kifayət qədər investisiyanın qoyulmaması nəticəsində xüsusilə gənclərin elmi fəaliyyətlərdə iştirakının arzuolunan səviyyədə olmadığını, xaricdə təhsil alan gənclərin vətənə qayıtması nəticəsində mühüm elmi uğurların şahidi olacağımızı qeyd edib.

Böyük Britaniyanın Kembric Universitetinin doktorantı, ADA Universitetinin müəllimi İnqilab Şahbazov qeyd edir ki, 2007-ci ildən Azərbaycan gənclərinin xaricdə təhsili üzrə dövlət prtoqramları icra olunur. Nazir Emin Əmrullayevin dediyi kimi, artıq nailiyyətlər də var. Proqram çərçivəsində xaricdə təhsil almış gənclər artıq ölkəmizdə müxtəlif iş yerlərində çalışırlar.

Elm və təhsil nazirinin mühüm açıqlamalarından biri elmə investisiyaların ayrılmasının vacibliyi ilə bağlıdır ki, hazırda bu məsələ bütünlükdə elm və ali təhsil müəssisələrimizdə elmi-tədqiqatların səmərəliliyinin artırılması və keyfiyyətin yaxşılaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Xüsusən də gənc alim və tədqiqatçıların elmə cəlbinin stimullaşdırılması rəqabətli elm və ali təhsil mühitinin formalaşdırılması baxımından ciddi əhəmiyyət daşıyır. Lakin gənclərin elm sahəsində kifayət qədər təmsil olunmasına nail olmaq üçün ciddi maliyyə stimullaşdırılması da qaçılmazdır.

İnqilab Şahbazov qeyd edir ki, gənclərin elmi fəaliyyətdə çox təmsil olunmaması, tədqiqatlara maraq göstərməməsi qlobal trenddir. "Mən İngiltərədə təhsil almışam və hazırda da bu ölkədə doktorantura təhsili alıram və istər-istəməz bu prosesləri yaxından müşahidə edirəm. Bu məsələ orada da ciddi problem kimi durur, gəncləri elmə cəlb etmək çətinləşib. Təhsil tədqiqatlarına dair jurnallara baxsaq, orada doktorantların universitetlərdə əməkdaş kimi saxlanılmasının getdikcə çətinləşdiyinə dair məqalələr görmək olar. Bir sıra ölkələrdə elm sahəsində vəziyyət maddi cəhətdən aşağıdır".

Müsahibimiz gənclərin elmə cəlb olunması, elm sahəsinə investisiyaların ayrılması, ümumiyyətlə, elm sahəsində keyfiyyət dəyişikliklərinə nail olunmasında özəl sektorla əməkdaşlığın gücləndirilməsini vacib hesab edir. "Düşünürəm ki, elmi mühitin yaradılması qaçılmazdır ki, özəl sektor 15-20 illik investisiyalara getsin. Bu investisiya olmayanda gənclər digər pullu sahələrə üz tuturlar. Problemin fundamental kökünü mən bunda görürəm".

Gənc tədqiqatçı problemin həlli ilə bağlı fikirlərini bölüşüb və qeyd edib ki, məsələni gələcəkdə qısa müddətdə həll etmək mümkündür. Ola bilər ki, dövlət vəsait ayırsın, müəyyən tədqiqat istiqaməti üzrə, deyək ki, bir akademik institut yaradılsın və gənclər orada işləsinlər. Bu, baş verərsə, mükəmməl bir iş olar. Yenə də özəl sektoru bu sahəyə cəlb etmədən gəncləri kütləvi surətdə elmə cəlb edə biləcəyimizi düşünmürəm. Bu, ümumiyyətlə, hazırkı dövrdə qlobal problemdir.

Qeyd edək ki, İnqilab Şahbazov Böyük Britaniyanın Kembric Universitetində "MPhil in Criminology" ixtisası üzrə magistratura təhsili alıb. O, "Tədqiqat metodları" kitabının müəllifidir və 8 ildən artıq tədqiqatçılıq təcrübəsinə malikdir.

**Oruc MUSTAFAYEV**

## "Məktəblilərarası Milli Hakaton - 2025"



### Müsabiqənin olimpiada mərhələsinə mediatur təşkil olunub



Elm və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən "Məktəblilərarası Milli Hakaton - 2025" müsabiqəsinin olimpiada mərhələsinə mediatur təşkil olunub.

Mediaturda Elm və Təhsil Nazirliyinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əməkdaşları, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, sahə üzrə blogerlər və media nümayəndələri iştirak ediblər.

Olimpiadanı izləyən mediatur iştirakçılarına məlumat verilib ki, "Məktəblilərarası Milli Hakaton - 2025" müsabiqəsinin əsas məqsədi məktəblilər arasında rəqəmsal bacarıqların inkişafına dəstək olmaq, proqramlaşdırma sahəsində onların biliklərini artırmaq, IT üzrə istedadlı məktəbliləri müəyyən edərək onlar üçün gələcək inkişaf imkanları yaratmaqdır.

Qeyd edilib ki, mərkəzləşdirilmiş qaydada təşkil olunmuş imtahanda şagirdlərə 3 saat ərzində bilik və bacarıqlarını nümayiş etdirmələri üçün 10 tapşırıq təqdim olunub. İmtahan Bakı, Sumqayıt, Gəncə və digər şəhərlər də daxil olmaqla ümumilikdə 12 mərkəzdə təşkil olunub. İmtahandan yüksək nəticə göstərən şagirdlər yarımfinal mərhələsinə vəsiqə qazanacaqlar.

Müsabiqənin final mərhələsində 120 iştirakçıdan ibarət 30 komanda yarışacaq. Qalib komandaları mükafatlar və xüsusi hədiyyələr gözləyir.

**Ruhiyyə DAŞSALAHLI**

# "Elm və təhsilə birgə baxış"

## Layihə çərçivəsində universitetlərdə görüşlər keçirilir



Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsi tərəfindən həyata keçirilən "Elm və təhsilə birgə baxış" layihəsi çərçivəsində ali təhsil müəssisələrində strateji görüşlər təşkil edilir.

Ali təhsilin inkişafı və keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən bu layihə çərçivəsində ali təhsil müəssisələrində təşkil edilən görüşlərdə sözügedən təhsil sahəsində aktual məsələlər müzakirə edilir, qarşılıqlı əməkdaşlıq imkanları qiymətləndirilir.

Layihə çərçivəsində Azərbaycan Texniki Universitetində (AzTU) və Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) görüşlər təşkil olunub. Görüşlərdə hər iki universitetin rəhbərliyi, professor-müəllim heyəti və Elm və Təhsil Nazirliyinin müvafiq şöbəsinin nümayəndələri iştirak ediblər. Görüşlər zamanı ali təhsilin hazırkı vəziyyəti, universitetlərdə tədrisin təşkili və müəllim heyətinin inkişaf ehtiyacları üzrə geniş fikir mübadiləsi aparılıb. Görüş iştirakçıları tərəfindən ünvanlanan çoxsaylı suallar nazirlik nümayəndələri tərəfindən cavablandırılıb, irəli sürülən təkliflərin hüquqi-normativ bazanın təkmilləşdirilməsində nəzərə alınacağı bildirilib.

Görüş iştirakçıları belə əməkdaşlıq platformalarının ali təhsilin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli töhfə verəcəyinə ümidvar olduqlarını ifadə ediblər.



# Qlobal təhsil tərəfdaşlığının 2024-cü il üzrə illik hesabatı

Qlobal təhsil tərəfdaşlığının 2024-cü il üzrə illik hesabatı hazırlanıb. Təhsil İnstitutunun Beynəlxalq Təhsil İcmalı bülleteninin may sayında hesabatdan çıxarışlara yer verilib. Hesabatda təşkilatın inkişaf etməkdə olan ölkələrdə təhsilin keyfiyyətinin artırılması, hər bir uşağın təhsilə çıxışının təmin olunması və gender bərabərliyinin təşviqi istiqamətində gördüyü işlər əks olunur. Qlobal təhsil tərəfdaşlığının missiyası tərəfdaşlıqları və investisiyaları səfərbər edərək, təhsil sistemlərini transformasiya etməkdir. 2024-cü ildə Qlobal təhsil tərəfdaşlığı tərəfindən 1 milyard ABŞ dollarından çox qrant təsdiqlənib ki, bu da əvvəlki illə müqayisədə 25% artım deməkdir. İnkişaf etməkdə olan ölkələrdə təhsilin inkişafı üçün əlavə maliyyə vəsaitləri cəlb etmək Qlobal Təhsil Tərəfdaşlığı tərəfindən idarə olunan bir maliyyələşdirmə mexanizminə malik "Multiplier" adlı proqramının əsas məqsədidir.

Qlobal təhsil tərəfdaşlığı qrantları son 4 ildə 253 milyon uşağa fayda verən 4 milyard ABŞ dollarına yaxın əlavə maliyyə resursu yaradıb. Həmçinin 1,9 milyon müəllim təlim keçib, 36000 sinif otağı tikilib və ya təmir olunub. Təhsil sistemlərinin transformasiyası qlobal təhsil tərəfdaşlığının əsas yanaşmasıdır. Bu yanaşma ölkələrin liderliyi ilə prioritet islahatların seçilməsi və bu islahatlara bütün tərəfdaşların resurslarının yönəldilməsini nəzərdə tutur.

2024-cü ildə Qana, Banqladeş, Vanuatu kimi ölkələrdə əsas diqqət erkən yaşlarda təhsilin keyfiyyətinin artırılmasına, gender bərabərliyinin təmin olunmasına və əlilliyi olan uşaqların təhsilə cəlb edilməsinə yönəlib. Qlobal təhsil tərəfdaşlığının maliyyə alətləri, o cümlədən "Multiplier" və "Girls' Education Accelerator" (Qızların Təhsilini Dəstəkləmə Proqramı) ölkələrə əlavə və səmərəli maliyyə cəlb etməyə imkan verir. Qrantlar nəticə əsaslı maliyyələşdirmə mexanizmləri ilə müşayiət olunur və ölkələrdə təhsil xərclərinin səmərəliliyinin artırılmasına stimul verir.

Qlobal təhsil tərəfdaşlığı humanitar təşkilatlarla münaqişə və böhran şəraitində olan ölkələrdə təhsilin davamlılığını təmin etmək üçün əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində Ukrayna, Sudan, Cənubi Sudan, Pakistan və digər ölkələrdə məktəblərin bərpası, müəllimlərin təlimi, psixososial dəstək və müvəqqəti təhsil mərkəzlərinin yaradılması kimi tədbirlər həyata keçirilib. Eyni zamanda, qlobal təhsil tərəfdaşlığının qrantlarının əksəriyyəti gender bərabərliyinin təşviqinə və əlilliyi olan uşaqların təhsilə cəlb edilməsinə yönəlib. "Girls' Education Accelerator" proqramı vasitəsilə 15 ölkədə 3,6 milyon qız uşağının təhsilə çıxışını yaxşılaşdıran 225 milyon dollar həcmində maliyyə dəstəyi ayrılıb. Hesabatda qeyd edilir ki, qlobal təhsil tərəfdaşlığının uğurunun əsas səbəblərindən biri də geniş tərəfdaşlıq şəbəkəsidir. Burada hökumətlər, vətəndaş cəmiyyəti, özəl sektor və donorlar birgə fəaliyyət göstərir. Qlobal təhsil tərəfdaşlığı tərəfindən maliyyələşdirilən 133 milyon dollarlıq qlobal təhsil dəstək fondu olan "Education Out Loud" (Təhsilin Güclü Səsi) vətəndaş cəmiyyətinin təhsil siyasətinin formalaşmasında iştirakını gücləndirir. 2025-ci ildə Qlobal təhsil tərəfdaşlığı yeni maliyyələşdirmə mərhələsinə başlayaraq, "Qlobal təhsil tərəfdaşlığı 2030" adlı strategiyanı hazırlayacaq. Gələcəkdə əsas prioritetlərdən biri daha çox ölkənin, donorun cəlb olunması, innovativ maliyyə mexanizmlərinin genişləndirilməsi və ən həssas qrupların təhsilə çıxışının təmin olunmasıdır.

2024-cü il üzrə hesabat göstərir ki, qlobal təhsil tərəfdaşlığının fəaliyyəti nəticəsində milyonlarla uşaq təhsilə çıxış əldə edib. Həmçinin müəllimlərin peşəkarlığı artıb, təhsil infrastrukturu yaxşılaşıb və gender bərabərliyi sahəsində mühüm irəliləyişlər əldə olunub. Qlobal təhsil tərəfdaşlığının əsas məqsedi gələcəkdə də inklüziv, keyfiyyətli və davamlı təhsil sistemlərinin qurulmasına dəstək verməkdir.

# "Azərbaycanın təhsil imkanları valideynlərimin diqqətini çəkdi"



## Əlcəzairli tələbə:

## "Şuşanı gəzdim və möhtəşəm təbiətini, saf havasını çox sevdim"

Bakı Mühəndislik Universitetinin (BMU) Əlcəzair Xalq Demokratik Respublikasından olan tələbəsi Safi Omayma Habib universitet və Azərbaycanla bağlı təəssüratlarını bölüşüb. "Azərbaycan müəllimi" müsahibəni təqdim edir:

- *Əvvəlcə sizi yaxından tanıyaq. Hansı ölkədən gəlmisiniz, hansı ixtisas üzrə təhsil alırsınız? Valideynləriniz harada çalışır və Azərbaycanda təhsil almağınıza necə yanaşdılar?*

- Adım Omaymadır. Əlcəzairdənəm və "Fiziki-kimya" ixtisası üzrə BMU-nun magistr tələbəsiyəm. Atam Əlcəzairdəki Naama Universitetinin rektorudur. Ailəm Azərbaycanda təhsil almaq qərarımı tərəddüdsüz dəstəklədi. Çünki mən həm müsəlman respublikasını, həm də mədəni zənginliyi geniş, iqtisadi cəhətdən sürətlə inkişaf etmiş, digər xalqların, dövlətlərin milli, dini dəyərlərinə tolerantlıq göstərən, hörmətlə yanaşan bir ölkəni seçirdim. Bundan əlavə, Azərbaycanın Şərq və Qərb mədəniyyətlərinin unikal şəkildə qovuşduğu məkan olması, bir sıra nüfuzlu beynəlxalq tədbirlərə layiqli şəkildə ev sahibliyi etməsi diqqətçəkici idi. Azərbaycana dünyanın bir sıra ölkələrindən təhsil almağa gələnlər var. Düşünürdüm ki, bu, eyni zamanda Azərbaycanın təhsilə göstərdiyi xüsusi diqqətlə bağlıdır. Azərbaycan xarici ölkələrlə elm və təhsil sahəsində uğurlu əməkdaşlıq yaradır. Dünya universitetləri ilə yaxşı münasibətlər qurur, təcrübə mübadiləsi aparır və s. Bunlar hamısı xarici tələbə üçün vacib amillərdir. Ali təhsildə, elmi-tədqiqatlarda beynəlxalq təcrübənin nə qədər əhəmiyyətli olduğunu anlayan ailəm ölkənizin bu cəhətdən potensialını yüksək qiymətləndirərək mənim seçimimə xoş reaksiya göstərdi.

- *Atanızın Əlcəzairdə tanınmış ali təhsil müəssisəsinin rəhbəri olması diqqəti cəlb edir və istər-istəməz belə bir sual yaranır: nə əcəb, daha rahat yolu-həmin universitetdə təhsil almağı seçmədiniz?*

- Atamın rəhbərlik etdiyi universitet nüfuzlu olsa da, mən fərqli təhsil sistemi və mədəniyyətlə tanış olmaq istəyirdim. Xaricdə təhsil insana müstəqillik qazandırır, dünyagörüşünü genişləndirir və unikal imkanlar yaradır. Açığı, bu fürsəti qaçırmaq istəmədim!

- *Niyə məhz Bakı Mühəndislik Universiteti? Xüsusi bir kriteriya var idimi?*

- BMU güclü mühəndislik proqramları, müasir infrastrukturu və multikultural mühiti ilə seçilir. Burada tələbələrin elmi-tədqiqatla məşğul olmalarına imkanlar var. Universitetin beynəlxalq təşkilatlarla olan tərəfdaşlıqları və innovasiyaya verdiyi əhəmiyyət gələcək karyera hədəflərimlə üst-üstə düşür.

- *Müəllimlər, tələbə yoldaşlarınızla münasibət necədir? BMU-da təhsil alan başqa ölkələrdən olan tələbələrlə ünsiyyət qurmağa həvəslisinizmi? Yəni beynəlxalq tələbə mühitində rahatsınız, yoxsa hansısa çətinliklər ortaya çıxır?*

- Müəllimlərim çox səmimi və qayğıkeşdirlər. Xüsusilə xarici tələbələrə həssas yanaşırlar. Bu da məni sevindirir. Eləcə də yerli və beynəlxalq tələbələrlə yaxşı münasibətlər qurmuşam. Düzdür, dil fərqi bəzən maneələr yaradır, amma hər kəs mehribandır. Digər beynəlxalq tələbələrdən müxtəlif mədəniyyətlər haqqında məlumat əldə etməyi çox xoşlayıram. Bu, dünyagörüşümü zənginləşdirir.

- *Tələbə olmazdan qabaq Azərbaycana səyahət etmək imkanı olmuşdumu? Ümumiyyətlə, ölkəmiz sizdə necə təəssürat yaradıb?*

- Bəli, universitetə qəbul olmazdan əvvəl Azərbaycana səfər etmişdim. Səfər zamanı gözəl memarlıq nümunələri, insanların qonaqpərvərliyi və ölkənizin zəngin tarixi məni valeh etmişdi. Bakının həm ənənəvi, həm də müasir üslubun vəhdətini əks etdirməsi, xüsusilə Alov qüllələri və Xəzər dənizi mənzərələri yaddaşımda dərin iz buraxmışdı. Şuşaya da getmək şansım oldu. Şuşanı geri almaq uğrunda əsgərlərinizin böyük qəhrəmanlıq, fədakarlıq göstərmələri barədə faktlarla tanış oldum. Şuşanı gəzdim və möhtəşəm təbiətini, saf havasını çox sevdim. Doğrudan da gözəl torpaqlarınız var. Düşünürəm ki, tələbəlik həyatı həm də Azərbaycanı daha dərindən kəşf etmək, görmək, tanımaq fürsətidir və buna vaxtım olacaq.

- *Azərbaycanın dili, musiqisi, mətbəxi… yəqin bildiyin sözlər, dinlədiyin musiqi, sevdiyin yeməklər də var...*

- Bəli, bir neçə ifadə öyrənmişəm, məsələn: "Salam", "Çox sağ ol" və "Necəsən?". Bunlar gündəlik danışıqda lazımdır. Yeni sözlər bilmək ehtiyacı da yaranır ki, onları öyrənmək və yadda saxlamağa çalışıram. Musiqiyə gəlincə, muğam və müasir Azərbaycan pop musiqisini xoşlayıram. Yeməklər də əladır. Plov, dolma və qutab ən çox sevdiklərimdir. Yemək cəhətdən heç bir əziyyət çəkmirəm.

- *Təhsilini başa vurduqdan sonra nələr planlayırsan? Gələcək hədəflər nədən ibarətdir?*

- Magistraturadan sonra doktorantura təhsilimi də elə BMU-da davam etdirməyi planlaşdırıram. Burada keçirdiyim vaxt mənə texniki bacarıqlar və mədəniyyətlərarası uyğunlaşma qabiliyyəti qazandırdı. Bu da doktorantura təhsili almaq və ixtisasımı daha dərindən öyrənmək arzum üçün əsas üstünlüklərdir.

**İctimaiyyətlə əlaqələr şöbəsi**



# AƏSMA və TİF arasında əməkdaşlıq müqaviləsi imzalanıb

4 iyun 2025-ci il tarixində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası (AƏSMA) və Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu arasında "TələbəPlus" layihəsi çərçivəsində əməkdaşlıq müqaviləsi imzalanıb.

Tədbiri giriş sözü ilə açan AHİK sədrinin müşaviri Orxan Ərəbov bildirib ki, Təhsilin İnkişafı Fondu ilə imzalanan əməkdaşlıq müqaviləsi tələbələrin sosial rifahının artırılması və onlara daha geniş imkanların təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini icra edən dosent Yusif Ağayev bildirib ki, "Kapital Bank" və "Visa" şirkətinin dəstəyi ilə həyata keçirilən "TələbəPlus" layihəsi tələbələrə eyni anda həm universitetə giriş-çıxış, həm təqaüd və debet ödənişləri, həm də müxtəlif sahələrdə güzəşt və keşbek imkanları təqdim edir. Akademiya olaraq bu cür tələbəyönümlü təşəbbüslərin hər zaman dəstəklənəcəyini bildirən Yusif Ağayev layihənin imkanlarının tələbələr üçün maksimum dərəcədə əlçatan edilməsinə çalışılacağını qeyd edib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov çıxış edərək bildirib ki, "TələbəPlus" layihəsi gənclərin təhsil və sosial həyatında dəyişikliklərə səbəb olacaq innovativ təşəbbüsdür. O vurğulayıb ki, layihə vasitəsilə tələbələr həm təhsil prosesində, həm də gündəlik həyatda müxtəlif üstünlüklərdən faydalanacaq, eyni zamanda, sosial-iqtisadi cəhətdən daha aktiv və müstəqil ola biləcəklər. Elnur Nəsibov bildirib ki, Təhsilin İnkişafı Fondu ali təhsil müəssisələri ilə əməkdaşlığı genişləndirərək "TələbəPlus" kartının əhatə dairəsini ölkə üzrə daha çox tələbəyə çatdırmağı hədəf kimi müəyyənləşdirib.

Çıxış edən AƏSMA-nın beynəlxalq əlaqələr üzrə prorektoru Xəyalə Məmmədova birgə əməkdaşlığın beynəlxalq əlaqələrinin genişlənməsinə dəstək verəcəyini və yeni təhsil layihələrinə yol açacağını diqqətə çatdırıb.

Tədbir çərçivəsində Təhsilin İnkişafı Fondunun Layihələrin idarə edilməsi şöbəsinin baş mütəxəssisi Aysel Məhərrəmova "TələbəPlus" kartı barədə iştirakçılara geniş məlumat təqdim edib.

Üzeyir HACIBƏYLİ - 140



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 3 fevral 2025-ci il tarixdə görkəmli bəstəkar, ictimai xadim, yazıçı, dramaturq, mütərcim, jurnalist Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

# Üzeyir Hacıbəyli yaradıcılığında təhsil, təlim, tərbiyə məsələləri

Hələ 23 yaşında ikən Üzeyir bəyin "Leyli və Məcnun" operası tamaşaya qoyulmuşdu. Həmin operadan sonra o, qısa müddətdə 5 opera və 3 operetta yazmışdır. Üzeyir Hacıbəylinin yaradıcılığı bununla məhdudlaşmır. O, çoxsaylı mahnıların, satirik hekayələrin, məqalələrin, səhnəciklərin, felyetonların müəllifidir. "Yeni iqbal" və "Azərbaycan" qəzetlərinin redaktoru, SSRİ xalq artisti, Azərbaycan Konservatoriyasının rektoru, Azərbaycan Bəstəkarlar İttifaqının sədri olmuşdu, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü idi.

Üzeyir Hacıbəyli bəstəkar olmaqdan qabaq təcrübəli, qabaqcıl müəllim idi. 1904-cü ildə Cəbrayıl qəzasında müəllim işləmişdi. Müəllimlik fəaliyyətinə başlayarkən Qori Müəllimlər Seminariyasında təhsil alaraq (1890-1904) müəllimlik peşəsinə yiyələnmişdi. O zamanlar Müslüm Maqomayev də burada təhsil alırdı. Gələcəyin dahi bəstəkarları seminariyada tanış olmuşdular. İlk təhsil illəri isə Şuşanın ikiillik rus-türk məktəbində keçmişdir.

Üzeyir Hacıbəyli ən mötəbər və möhtəşəm məclislərdə əzəmətlə səslənən Azərbaycan Respublikasının Dövlət Himnini bəstələmişdir. Həmin himn 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə meydana gəlmişdi.

Azərbaycanın görkəmli bəstəkarları Asəf Zeynallı, Səid Rüstəmov, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Niyazi, Cövdət Hacıyev, Şəfiqə Axundova, Cahangir Cahangirov və b. Üzeyir bəyin tələbələri olmuşlar.

Üzeyir Hacıbəyli Ağcabədidə doğulsa da, sonralar Şuşada yaşamış, 1905-ci ildən Bakıda əmək fəaliyyətini davam etdirmişdir.

Bəstəkarın fəaliyyəti çoxcəhətlidir. Biz onu müəllim, yazıçı, dramaturq, dirijor, jurnalist, fövqəladə istedada malik musiqişünas, publisist, ictimai xadim, alim, dərsliklər müəllifi kimi tanıyırıq. Professor, akademik idi, Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası), respublika Bəstəkarlar İttifaqının sədri, deputat olmuşdu.

Üzeyir Hacıbəyli yaradıcılığı son dərəcə zəngindir. Müxtəlif elm sahələri (psixologiya, pedaqogika, fəlsəfə, filologiya və s.) üzrə onun yaradıcılığına müraciət etmək olar.

Dahi Üzeyir hər bir insanın şəxsiyyət statusu almasından ötrü onun davranışı və rəftarına bir çox mühüm tələblər verirdi. Bütün bunları onun əsərlərindən görmək mümkündür. Üzeyir bəy yaradıcı insan olmaqla yanaşı bir şəxsiyyət kimi kamil idi. Ən yaxşı mənəvi keyfiyyətləri özündə cəmləşdirmişdi. Üzeyir bəy nümunə idi. Bir insan, bir tərbiyəçi, bir yaradıcı şəxs kimi.

### Üzeyir Hacıbəylinin məqalələrində təhsil, təlim və tərbiyə məsələləri

Üzeyir Hacıbəylinin fəaliyyəti geniş, yaradıcılığı zəngindir. Onun əsərləri ilə tanışlıq adamı maarifləndirir, Azərbaycanın Oktyabr çevrilişinə qədərki və sonrakı - ötən əsrin 50-ci illərinə qədərki həyatı ilə bizi tanış edir. Üzeyir Hacıbəylini bir dahi bəstəkar, görkəmli musiqi nəzəriyyəçisi və yazıçı kimi dünyada şöhrətləndirən onun heyrətamiz istedada malik olması idi. Musiqi yaradıcılığında da, ədəbi yaradıcılığında da yüksəklərdə dayanırdı.

Onun əsərlərində bir millət olaraq özəlliklərimiz, böyüklüyümüz, mədəniyyətimizin zənginlikləri diqqət mərkəzinə gətirilməklə yanaşı, məişətdə, gündəlik həyatda özünü göstərən bəzi çatışmazlıqlar da tənqid olunur.

Ötən yüzilliyin əvvəllərində ziyalılarımız dünyəvi təhsilin məktəblərdə tətbiqi ilə bağlı çağırışlar edirdilər. Ali təhsil almaq son dərəcə çətin idi. Hökmən xarici ölkələrə üz tutmaq lazım gəlirdi. Həmin çətinlikləri "Tələbələr məsələsi" məqaləsində diqqət mərkəzinə gətirmişdir.

Fikir verək: *"Binəva cavanlarımız yeddi-səkkiz il realnı və gimnaziyalarda çalışıb ikmal edib, şəhadətnamələr almağa müvəffəq olurlar. Ali məktəblərə getməyə haqq və ixtiyar qazanırlar. Amma pulları olmadığına görə illərlə qazanmış olduqları haqdan əl çəkməyə məcbur olurlar və ya nə olur-olsun deyə ali məktəbləri olan şəhərlərə rəvan olub, orada da pulsuzluq cəhətdən min cürə əziyyət və bəlalara düçar olurlar və yaxud məktəb haqqı vermədiyinə görə ixrac olurlar"*.

Eyni zamanda Üzeyir bəy göstərirdi ki, ali təhsilə yiyələnib millətin dərd-sərinə əlac etmək istəyən şəxslərlə maraqlanan, onlara kömək göstərmək istəyənlər yox idi. Bu xüsusda məqalədə deyilir: *"Bu tələbələrin qeydinə qalan yoxdur və heç kəs bunu nəzərə almır ki, bizim nə qədər təhsili-ali görmüş adamlarımız olsa, bir o qədər millətimizdən ötrü yaxşıdır. Əks surətdə, camaatımızın halı yaman olar, ayaqlar altında qalarıq, məhv və nabud olarıq.*

*Bundan əvvəl studentlərimizə ianə verib kömək edənlər yenə azçox olurdu, amma hal-hazırda bu ianə mənbəyi hər yerdən quruyubdur. Tələbələrimizin ədədi gündən-günə artmaq əvəzinə gündən-günə azalmağa üz qoyubdur. Müsəlman tələbələrindən Hacinski cənabları öz zavallı yoldaşlarının ağır halından bəhs edib camaatı ianəyə təklif eləyir. Lakin belə ianələr ilə bu mühüm işə əncam vermək olmaz"*.

Ali təhsil almağın yolları axtarılırdı. O zamanlar Hacı Zeynalabdin Tağıyev bu sahədə son dərəcə böyük işlər görürdü. Onların təhsil haqlarını ödəyirdi ki, bir peşəyə yiyələnib gəlib xalqın xidmətində dayansın. Öz həkimimiz, öz mühəndisimiz, öz müəllimimiz və s. olsun deyə. Başqa xalqlardan olan mütəxəssislərdən asılı olmayaq deyə.

Həmin vaxtlarda "Tələbələr sandığı" adlı bir xeyriyyə sandığı mövcud imiş. Həmin sandıqdan bəhs edən Üzeyir bəy yazırdı: *"Tələbələr sandığı" barəsində danışıqlar olmuşdu. "Tələbələr sandığı" çox gözəl bir şeydir. Əgər camaatımızın maddi və mənəvi iştirakı ilə belə bir sandıq təşkil olunub, doğru əllərə verilsə və o sandığın mədaxil və mənbələri təmin edilsə, tələbələrimizin də ikmali-təhsil işləri təmin edilmiş olar. İkmali-təhsil etmiş tələbələrmizin hamısı da olmasa, bir çoxu doktor, injiner və sair olmaqla, yaxşı maaş sahibi olarlar. Ona binaən, haman tələbələr özlərinə "sandıq" tərəfindən sərf olunan məbləği qism-qism sandığa iadə edə bilərlər və bununla "sandığın" pulu azalmaz, sandıqdan sərf edilən pullar itib-batmaz, yenə haman sandığa qayıdar"*.

Üzeyir Hacıbəylinin öz məqalələrində diqqət yetirdiyi məsələlərdən biri də tədris ocaqlarında təlimin ana dilində aparılması idi. Çar üsuli-idarəsi milli dilləri sıxışdırdığından təlimin Azərbaycan dilində olmasına da maneələr yaradırdı. Amma buna baxmayaraq ziyalılarımız, o cümlədən Üzeyir bəy bu məsələni hər an diqqətdə saxlayırdı.

Üzeyir Hacıbəyli "Əhəmiyyətli bir məsələ" məqaləsində yazırdı: *"Ümumi məktəblərimizdə əvvəl illəri ana dilində müəllimlərə ehtiyac göründü. Müəllimlərimizin də əksəri Qori seminariyasında ikmali-təhsil etmiş cavanlar olduğu məlumumuzdur. Lakin Qori seminariyasını qurtarmış müəllimlərin əksəri ana dilində savadlı olmurlar, ondan ötəri ki, haman seminariyada ana dili oxunmur. Oranın proqramı bu dil üçün yol vermir, orada ancaq həftədə iki dəfə şəriət dərsi oxunur. Seminariya qurtarmış müəllimlər ana dilində savadlı olurlarsa da, əksərən ya pedaqogika elmindən xəbərləri olmadıqlarına görə, tədris və təlimdə bilaixtiyar səhv və xətadan xali olmurlar"*.

Beləliklə, Qafqaz maarif müdiri qarşısında məsələ qaldırıldı ki, Qori müəllimlər seminariyasının müsəlman şöbəsində türk dilinin keçilməsinə razılıq verildi. Hətta bu məqsədlə seminariyada türk dilinin tədrisi məqsədilə 1500 man pul ayrıldı.

Dahi bəstəkar və yazıçının məqalələrində tərbiyə məsələləri də geniş şəkildə nəzərdən keçirilir. Təbii ki, bəzi məsələləri nümunə gətirəcəyik. Belə ki, "Bəyani-Məslək" məqaləsində "Məslək" məsələsinə münasibət bildirilir. Üzeyir bəy məsləksizliyi yoxsulluq, əxlaqın pozuntusu adlandırır. Onun nöqteyi-nəzərincə, məsləki olmayan şəxs yaman məsləkli insandan çox zərərlidir. Bunun səbəbi məqalədə belə aydınlaşdırılır: "Çünki yaman məslək müəyyən olduğu halda, onun zərərini də dəf etməyə çarə tapmaq asandır".

Üzeyir bəy "məslək" anlayışına tərif verir. Göstərir ki: *"Məslək hər kəsin etiqad etdiyi bir yoldur. "Ümuminin xoşbəxtliyinin, asayiş və aramını, rufah-halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəs hesab olunmalıdır. Belə bir məsləkə xəyanət edən şəxs haman məsləkə xəyanət etməməlidir. Bizim məsləkimiz odur ki, millətimizin tərəqqisinə bais olan hər bir həqiqi vasitə və nəsillərə yol verməli və millətimizin cəhalətə və yaxud tərəqqeyi-məkusə sövq edən şeyləri dəf və izalə etməlidir"*.

"Təzə il, təzə meydan" məqaləsi də tərbiyə məsələlərini özündə əks etdirir. Üzeyir bəyin düzgün qənaətinə görə, insan ildən-ilə böyüyür, fəqət bu böyümə təkcə onun bədəninin cismani böyüməsi deyildir. Yəni söhbət heç də onun bədəninin irilənməsindən getmir, daha vacib məsələlər vardır ki, həmin məsələlərə onun təhsili, təlimi, tərbiyəsi və inkişafı aiddir. Bu mənada valideynin vəzifəsi, ilk növbədə, övladlarına düzgün tərbiyə verməkdir. Üzeyir bəyə, onun "Təzə il, təzə meydan" məqaləsinə müraciət edək: *"Allah-təala birisinə bir övlad kəramət etdikdə onun qəlbinə övladına qarşı bir hissi-məhəbbət qoyur ki, o məhəbbət onun üçün balanı baldan şirin edir. Lakin balaya yalnız məhəbbət qalsa, onda bala öz valideynindən heç bir mənfəət görməz. Halbuki valid haman hissi-məhəbbətdən ruhani bu ləzzət almağa başlar. Balanın canını sevən ata-ana onun qeydinə də qalmalıdırlar ki, bu şirin bala dünyada sərbəst yaşamağa qədəm qoyduqda məişətinin tikanlı yollarından qorxmasın, mübarizeyi-həyatiyyə meydanında qorxudan bağrıya qalmasın. Mübarizıyə girişməyə məcbur olduqda həvadisin birinci zərbəsi altında tələf olmasın"*.

Son qənaətimiz nədir? Üzeyir Hacıbəyli sənəti, yaradıcılığı əbədiyaşardır. Onun pedaqojiyönlü bir çox hekayəsi vardır ki, gənc nəslin təhsillənməsi, tərbiyələndirilməsi və inkişaf etdirilməsi baxımından təhsil müəssisələri faydalana bilərlər.

**Akif ABBASOV,**
*Təhsil İnstitutunun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*

Bəxtiyar VAHABZADƏ - 100



Orta məktəblərdə ədəbiyyat fənninin tədrisi xalqın həyatı, mənəviyyatı və ictimai varlığı ilə əlaqədar olmaqla çox mühüm məsələdir. Gənclərimizin düzgün tərbiyə olunması işində, onların dünyagörüşlərinin istiqamətləndirilməsində ədəbiyyatın nə qədər böyük əhəmiyyətə malik olduğu məlumdur. Sənətin, ədəbiyyatın təsir qüvvəsi çox böyükdür. Ədəbiyyat sənətin ən əyani və ən inandırıcı forması olmaq etibarı ilə tərbiyə işində çox böyük təsir gücünə malikdir. Şagird ədəbiyyat vasitəsilə mənsub olduğu xalqın ruhuna, mənəviyyatına daxil olur. Oxuduğu əsərlərdə, eşitdiyi nəğmələrdə uşaq ikən zümzüməsi ilə yuxuya getdiyi laylalarda xalqını tanıyır, onu sevir və həqiqi bir vətəndaş kimi yetişir. Şagird qrammatika fənni ilə dilinin qanun-qaydalarını öyrənirsə, ədəbiyyat vasitəsilə bu dilin nələrə qadir olduğunu, bu dilin əzəmət və böyüklüyünü görür, incəlik və gözəlliyinə heyran qalır.

# "Ədəbiyyatın tədrisinə dair bəzi qeydlər"

Şagird tarix elmi vasitəsilə əcdadının keçdiyi şərəfli yolları, xalqın apardığı mübarizəni faktlarla öyrənirsə, ədəbiyyat vasitəsilə əcdadının şanlı tarixini bədii lövhələrdə görür, onun keçmişi ilə yaşayır, qələbələri ilə fəxr edir. Coğrafiya elmi vətəninin böyüklüyünü, qüdrətini, iqlimini, təbii sərvətlərini, iqtisadi qüdrətini rəqəmlərlə öyrədirsə, ədəbiyyat vətənin mənəvi qüdrətini, mənəvi böyüklüyünü bədii lövhələrlə göstərir.

Beləliklə, ədəbiyyat elminin tədrisində fakt və rəqəmlərin, müəyyən ölçü və qaydaların o qədər də böyük əhəmiyyəti yoxdur. Bu elmin tədrisində bizə görə ən mühüm amil müəllimin fənnə olan böyük məhəbbəti, xalq ruhunu, xalq mənəviyyatını dərindən bilməsidir. Ədəbiyyat müəllimi hər şeydən əvvəl bəhs etdiyi məsələnin atəşi ilə yanmağı, duya-duya, hiss edə-edə, alışa-alışa danışmağı bacarmalıdır.

Bu yaxın günlərdə mən Ağdam rayonuna getmişdim və orada bir məktəbin IX sinfində ədəbiyyat dərsinə qulaq asdım. Doğrusu, sinifdən çox bədbin çıxdım. Şagirdlər Zakirin həyatını danışırdılar. Lakin necə? Şagirdlər danışdıqca adama elə gəlirdi ki, canlı insan deyil, cansız qrammafon danışır. Şagirdlər dediklərini hiss etmir, əzbərlədiklərini tutuquşu kimi söyləyirdilər. Burada çox qəribə bir əhvalatın da şahidi oldum. Müəllim kitab cümlələrini eynilə əzbər deyən şagirdi saxlayıb, ona belə bir sual verdi:

- Zakir, M.F.Axundova nə yazmışdı?

Şagird nə qədər düşündüsə cavab verə bilmədi. Müəllim uşağa davam etməsini tapşırdı. Şagird yenə də eyni qayda ilə cümlə-cümlə kitabda yazılanları təkrar etdi, nəhayət, Zakirin M.F.Axundova yazdığı məktubdan da danışdı. Çox qəribədir. Bəs nə üçün sual veriləndə uşaq cavab tapa bilmədi?!

Demək, əgər şagird öz dediklərini başa düşsəydi, əzbərləməsəydi, müəllimin sualına cavab verə bilərdi. Əzbərçilik bizim şagirdlərimizi şüursuzluğa, fikirsizliyə gətirib çıxarır, bu isə çox qorxulu haldır. Ədəbiyyat müəllimlərimizin birinci vəzifəsi əzbərçiliyə qarşı mübarizə olmalıdır.

Dərsin ikinci yarısında müəllim Qasım bəy Zakirin lirikasını keçdi. Danışığındakı sərbəstlikdən və təmkinli davranışından məlum olurdu ki, müəllim öz fənnini bilir. Lakin, bilik azdır. Müəllimin danışığında Zakir şeirinə, bu şeirin incəliklərinə xüsusi məhəbbət hiss olunmurdu. Müəllimin dilində də quru kitab cümlələri, rəsmi ibarələr bol-bol idi ("ifşa etmişdir", "zəmanəsini satira atəşinə tutmuşdur", "öz əksini tapmışdır", "ifadə etmişdir" və s. kimi). Ədəbiyyat müəllimləri bir dəfə başa düşməlidirlər ki, cansız, standart, quru, rəsmi ifadə tərzləri, oynaq təbiətə malik olan, varlığı həyat eşqi ilə çırpınan uşaqların beynini yorur. Onlara canlı həyat və canlı dil lazımdır!

...Olduğum dərsdə isə müəllim cansız standart cümlələrlə şagirdlərdə Zakir kimi qüdrətli söz ustasına məhəbbət oyada bilmədi. Zakir lirikasından danışan müəllim, hər şeydən əvvəl, lirikanın nədən ibarət olduğunu, onun mahiyyətini dərindən bilməlidir. Yalnız bundan sonra hər hansı bir şairin lirikasını, bu lirikanın xüsusiyyətlərini şagirdə də izah etmək mümkündür. Zakirin lirikasını keçən müəllim dərslikdən başqa şairin öz kitabını alıb, onu bir daha mütaliə etsəydi, pismi olardı? Məgər Zakir şeirinin böyüklüyü və mahiyyəti dərslikdə yazılan bir-iki cümlə ilə izah oluna bilərmi? Zakir lirikasının mahiyyəti heç də onun şeirlərində nikbinliyinmi, ya bədbinliyinmi çox olmasında, yaxud daha artıq qəzəl formasındamı, tərcibənd formasındamı yazmasında, yaxud Füzuliyə nəzirə yazıb-yazmamasında deyil (dərsində olduğum müəllim Zakirin lirikası adına yalnız bunlardan danışdı). Bu şeirlərin mahiyyəti, hər şeydən əvvəl, tərənnüm olunan duyğuların həyatiliyində, incəliyində və şairin sənətkarlığındadır. Məgər pismi olardı ki, müəllim Zakirin əyanilik üçün "Müntəxəbat!" kitabında olmayan və özünün ən gözəl hesab etdiyi şeirlərdən birisini oxuyaydı, onu misra-misra uşaqlara izah edəydi, klassik şeirimizin gözəlliyini açıb göstərəydi.

Bu işdə müəllimlərimizdən də əvvəl, ən birinci günahkar dərslik yazan müəlliflərdir. Demək lazımdır ki, bizim ədəbiyyat dərsliklərimiz çox cansıxıcıdır. Bizcə, ədəbiyyat dərsliklərindəki nöqsanlardan geniş şəkildə danışıb bunu birdəfəlik həll etməyin vaxtı çoxdan gəlib çatmışdır. Ədəbiyyat dərsliklərində klassik sənətkarlarımızın yaradıcılığı əsasən birtərəfli, yalnız məfkurəvi nöqteyi-nəzərdən izah olunur. Şairin sənətkarlığı, onun bədii sözdən istifadə etmək bacarığı, ümumən bədii sözün nələrə qadir olduğundan qətiyyən danışılmır. Bədii əsərlər çox hallarda sosioloji nöqteyi-nəzərdən təhlil olunur.

...Yeri gəlmişkən, burada bir məsələdən də danışmaq lazım gəlir. Bizə elə gəlir ki, orta məktəb üçün dərslik yazan müəllif ədəbiyyat tarixinin xronoloji düzgünlüyünə riayət etmək naminə bütün yazıçıları dərsliyə salmağa məcbur deyil. Çünki bu, həm də uşaqların yükünü ağırlaşdırır.

Ədəbiyyat tarixi orta məktəbin VIII sinfindən başlayır. VIII, IX, X siniflərdə bu tarix xronologiya əsasında qurulmalıdır. Lakin, natamam orta məktəbin V, VI, VII sinifləri üçün yazılan dərsliklərə uşaqların tərbiyəsinə müvafiq olan əsərləri salmaq lazımdır. Ancaq, təəssüf ki, bu siniflər üçün dərslik yazan müəlliflər də əksərən ədəbiyyat tarixinin xronologiyasına riayət etməyə çalışırlar.

...Fikrimizi yekunlaşdıraraq deməliyik ki, istər dərslik yazan müəlliflərin, istərsə də müəllimlərin birinci məqsədi balalarımızın tərbiyəsinə düzgün istiqamət vermək, onlarda xalqımıza, Vətənimizə, ədəbiyyat və mədəniyyətimizə böyük məhəbbət oyatmaqdır! Bunun üçün öz fəaliyyətimizə bir daha baxmaq və onu zamanın səviyyəsinə yüksəltmək ən vacib vəzifəmizdir.

**Bəxtiyar VAHABZADƏ,**
*"Azərbaycan müəllimi", 20 oktyabr 1960-cı il, №79*

# "İnsan hüquqları aylığı"

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində ölkəmizdə elan olunan "İnsan hüquqları aylığı" ilə əlaqədar tədbirlər keçirilir. "İnsan hüquqları aylığı" çərçivəsində təhsil müəssisələrində keçirilən tədbirlərin əsas məqsədi insan hüquqlarını şagirdlər arasında təbliğ etmək, eləcə də cəmiyyətdə insan ləyaqətinə hörmətin, insan hüquqlarına əməl olunmasının zəruriliyini önə çəkməklə şagirdlərdə humanizm keyfiyyətlərini formalaşdırmaqdan ibarətdir.



Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin müvafiq sərəncamı ilə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, hər il iyunun 18-nin respublikamızda İnsan Hüquqları Günü kimi qeyd olunduğu vurğulanır. Ənənəvi olaraq hər il mayın 18-dən iyunun 18-dək ölkədə "İnsan hüquqları aylığı"nın keçirildiyi şagirdlərin diqqətinə çatdırılır.

Həmçinin respublikamızda insan hüquqlarının qorunması ilə bağlı atılan addımlardan və bu sahədə əldə edilmiş nailiyyətlərdən bəhs olunur. Hər bir insanın öz hüquqlarını bilməsinin və cəmiyyətdə insan hüquqlarının təşviqi məsələsinin vacibliyi şagirdlərin nəzərinə çatdırılır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003,

**Tiraj** 6231 **Sifariş** 1189

**Məsul növbətçi:** O.Mustafayev



# Etibarsız sayılır



**Bakı şəhər** 112 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Hüseynov Ceyhun Famil oğluna verilmiş A-513120 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** E.Məmmədov adına tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Ələsgərova Elmira Əjdər qızına verilmiş E-173034 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Alakol kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Sadıqov Eltun Mübariz oğluna verilmiş A-351325 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Hunanlar kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Alıyeva Diləfruz İlqar qızına verilmiş A-634339 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəb-liseyi 2004-cü ildə bitirmiş Musayev Seyfulla İlqar oğluna verilmiş B-101123 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Ulacalı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Muradova (Qasımova) Gültəkin Ülvi qızına verilmiş A-137830 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**16 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1998-ci ildə Kadiyev Ruslan Fazmuddinoviçə verilmiş AB-031211 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəmir Yolu Liseyi** tərəfindən 2009-cu ildə Günəşov Samir Əfsərağa oğluna verilmiş BB-046326 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt 3 nömrəli Peşə liseyi** tərəfindən 2019-cu ildə Əliyev Orxan Rövşən (İsmayılov Orxan Fərmayıl) oğluna verilmiş A-119776 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şirinsu kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Abıyeva (Hüseynova) Asiya Hümmət qızına verilmiş A-138364 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2011-ci ildə Xudayeva Məryəm Rasim qızına verilmiş AA-017653 nömrəli fərqlənmə subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 6 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Fətəliyev İsmayıl Məhərrəm oğluna verilmiş E-584378 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Nadil kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əliyev Xəqani Fəxri oğluna verilmiş A-485562 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Göyüşlü kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Məmmədli (Mustafayeva) Günay Şakir qızına verilmiş A-276249 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Tağızadə Nuray Telman qızına verilmiş A-085427 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 278 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Süleymanov Elman Telman oğluna verilmiş A-132292 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əlizadə Əli Sahil oğluna verilmiş E-507162 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Çaykənarı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Xasiyeva Gülnar Hacıağa qızına verilmiş B-552577 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 3 nömrəli məktəb-liseyi 2017-ci ildə bitirmiş Əmrullayev Vasif Vüqar oğluna verilmiş E-059526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Hacıyeva (Buniyat-zadə) İradə Rafikovnaya verilmiş A-022341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Texnikumu** tərəfindən 1996-cı ildə Səmədova Nurcan Telman qızına verilmiş AB-II-034271 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki Dövlət Regional Kolleci** tərəfindən 2022-ci ildə Ziyadzadə Lalə Yalçın qızına verilmiş AA-172134 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 23 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abışova Sevinc Əmrah qızına verilmiş A-648228 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 294 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Atakişiyeva Nərgiz Aslan qızına verilmiş A-030642 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Əliyev Oruc İlham oğluna verilmiş C-156240 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Dədə Qorqud (keçmiş Bayramovka) kənd tam orta ümumtəhsil məktəbi 1990-cı ildə bitirmiş Nəsirov Vüqar Ağababa oğluna verilmiş A-051385 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1978-ci ildə Rüstəmov İlham Rüstəm oğluna verilmiş П-730355 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2019-cu ildə Abasov Fərəc Ehtiram oğluna verilmiş C-032069 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2023-cü ildə Tomtuyev Rüstəm Şəmistan oğluna verilmiş C-198297 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2022-ci ildə Rəhimova Afina Hakim qızına verilmiş C-096010 nömrəli bakalavr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İbadova (Qazıyeva) Təranə Bayram qızına verilmiş A-030575 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 84 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İbadova Aytən Faiq qızına verilmiş B-379465 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2018-ci ildə Quliyeva Əfsanə Zəravənd qızına verilmiş AM-018022 nömrəli magistr diplomuna əlavə tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Məmmədova Vəfa Vaqif qızına verilmiş AK-419524 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şürük kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Əliyeva Günayə Məmmədağa qızına verilmiş B-438169 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** Girdəni kənd tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Rzayeva Günel Nazim qızına verilmiş A-159651 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gəgiran kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Əhmədzadə Qurban Möhsüm oğluna verilmiş A-084297 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2013-cü ildə verilmiş A-240074 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Şorsulu kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Babayev Anar Elton oğluna verilmiş A-0394 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Qafarova Anay Səxavət qızına verilmiş A-510478 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qafarova Aylin Səxavət qızına verilmiş E-016607 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Həsənova Fatimə Altay qızına verilmiş C-581553 nömrəli ümumi orta təhsil haqqında attestat və 2024-cü ildə verilmiş E-666275 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Ulubəyli (Məlikova) Sona Niyazi qızına verilmiş B-193445 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin kollektivi nazirliyin Maliyyə şöbəsinin Maliyyə sektorunun böyük məsləhətçisi Sənəm Musayevaya həyat yoldaşı

**ELNUR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.